# İğdır-Naxçıvan qaz kəməri:

# Türk dünyasının enerji körpüsü

**Martın 5-də Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Ankaraya işgüzar səfəri iki qardaş ölkə arasında dərin və möhkəm münasibətlərin növbəti təzahürü oldu.**

Bu səfər bir daha sübut etdi ki, Azərbaycan və Türkiyə arasındakı dostluq, siyasi və iqtisadi əməkdaşlıq tarixi köklərə, ortaq maraqlara, qarşılıqlı dəstəyə və gələcəyə yönəlmiş strateji hədəflərə söykənir. Hər iki ölkənin rəsmi nümayəndələrinin iştirakı ilə gerçəkləşən toplantı çərçivəsində mühüm məsələlər müzakirə olundu, enerji sahəsində tarixi əhəmiyyətə malik İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimi oldu. Bu mühüm hadisə ikitərəfli iqtisadi inteqrasiyanı daha da gücləndirən yeni əməkdaşlıq səhifəsinin başlanğıcı kimi qiymətləndirildi. İğdır-Naxçıvan qaz boru kəməri Naxçıvanın enerji təhlükəsizliyini təmin etməklə, eyni zamanda regionda sosial rifahın yüksəlməsinə də böyük töhfə verir.

**(davamı 9-cu səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Layihə həm Naxçıvanın qaz təchizatını şaxələndirmək, həm də Türkiyənin İğdır bölgəsinin enerji təminatını gücləndirmək baxımından strateji əhəmiyyət daşıyır. Bu, həm də geosiyasi uğurdur, çünki enerji təhlükəsizliyi regional sabitliyin və inkişafın əsas sütunlarından biri sayılır.

Tədbirdə çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, İğdır-Naxçıvan qaz xəttinin açılışı Türkiyə-Azərbaycan dostluq, qardaşlıq tarixində önəmli bir gün kimi yadda qaldı. Ölkə başçısı, həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə İğdır-Naxçıvan qaz xəttinin Naxçıvanda təməlinin qoyulmasını xatırlatdı: "Bu gün Türkiyə-Azərbaycan dostluq, qardaşlıq tarixində önəmli bir gündür - İğdır-Naxçıvan qaz xəttinin açılışı qeyd edilir. Burada deyildiyi kimi, Naxçıvanda hörmətli Cümhurbaşqanı ilə birlikdə bir il yarım bundan öncə biz bu qaz xəttinin təməlini qoyduq və artıq bu gözəl mərasimdə iştirak edirik".

İğdır-Naxçıvan qaz kəməri türk dünyasının bütövlüyünə və güclənməsinə xidmət edən böyük bir missiyanı da özündə ehtiva edir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP kimi nəhəng enerji layihələri rəsmi Bakı ilə Ankara arasında iqtisadi bağlılığı daha da möhkəmləndirib. Artıq Azərbaycan nefti və qazı Türkiyə ilə yanaşı, Avropanın da enerji təhlükəsizliyinin ayrılmaz hissəsinə çevrilib. İğdır-Naxçıvan qaz kəməri bu uğurlu enerji əməkdaşlığının yeni mərhələsidir. Cəmi 80 kilometr uzunluğu olan və gündəlik 2 milyon kubmetr qaz nəql etmək gücünə malik boru xətti Naxçıvanın enerji təminatını ən azı 30 il müddətinə sabitləşdirəcək. Bu isə muxtar respublikanın enerji təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, onun iqtisadi inkişafına da ciddi təkan verəcək. Azərbaycan və Türkiyə arasında enerji sahəsindəki bağlar digər strateji sahələrdə də uğurlu əməkdaşlığın təməlini qoyur. Bakı-Tbilisi-Qars dəmir yolu da bu birliyin bariz nümunələrindən biridir. Sərnişin və yükdaşımaların operativliyini artıran, iki ölkənin iqtisadi inteqrasiyasına böyük töhfə verən layihə təkcə Azərbaycan və Türkiyəni deyil, bütün türk dünyasını birləşdirən mühüm nəqliyyat dəhlizlərindəndir. İğdır-Naxçıvan qaz kəməri bu möhtəşəm tərəfdaşlığın enerji sektorundakı yeni nəfəsidir, türk birliyinin gücünü dünyaya nümayiş etdirən daha bir uğurlu addımdır.




Azərbaycanın enerji diplomatiyası regionun güc balansını yenidən formalaşdırır. Ötən il ölkəmizin qaz ixracatı 25 milyard kubmetrə çatıb. Bu həcmin yarıya qədəri qardaş Türkiyəyə yönəldilsə də, digər 10-u Avropa ölkəsi olmaqla ümumilikdə 11 ölkə Azərbaycan qazı ilə enerji ehtiyaclarını ödəyir. İğdır-Naxçıvan qaz kəməri isə Naxçıvanın enerji təminatında inqilabi bir mərhələdir. Artıq qədim diyarımız svop mexanizmi ilə Türkiyə üzərindən Azərbaycan qazını alacaq və bununla da enerji təchizatında asılılıq faktoruna son qoyulacaq. Yeni layihə muxtar respublikanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, onun sənaye potensialını da gücləndirəcək. Bundan sonra Naxçıvanda istehsal sahələri genişlənəcək, investisiya axını artacaq və sosial rifah daha da yüksələcək. Çünki enerji sabitliyi inkişaf üçün əsas şərtlərdən biridir. Digər mühüm məqam isə geosiyasi perspektivdir. Naxçıvanın Türkiyə ilə enerji əlaqələrinin möhkəmlənməsi bölgədə strateji dinamikanı dəyişir. Azərbaycan və Türkiyə arasında energetika sahəsindəki əməkdaşlıq bu layihə ilə yeni mərhələyə yüksəlir və regionun enerji xəritəsində tarixi bir dönüş nöqtəsinə çevrilir.

Bu gün türk dövlətlərinin qarşısında duran ən böyük vəzifə ortaq maraqlar və strateji əməkdaşlıqlar əsasında birliyi daha da möhkəmləndirmək, onu əbədi və sarsılmaz etməkdir. Bu kontekstdə 2024-cü il iyulun 6-da Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü tarixi əhəmiyyət daşıyır. Azərbaycanın ev sahibliyi etdiyi möhtəşəm toplantıda "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda aparılan müzakirələr, eləcə də imzalanan Qarabağ Bəyannaməsi türk dünyasının vahid siyasi, iqtisadi və mədəni platforma üzərində daha sıx birləşməsinə xidmət edir. Bu sənəd həm də qlobal səviyyədə türk dünyasının strateji gücünün artmasını hədəfləyir. Zirvə görüşü çərçivəsində Türk Dövlətləri Təşkilatının strateji tərəfdaşlığının möhkəmləndirilməsi və kollektiv strategiyanın formalaşdırılması məsələləri müzakirə edildi. Türk dövlətlərinin iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində tam potensialından istifadəsinin vacibliyi vurğulandı. Həmçinin türk dövlətlərinin qlobal ticarət və iqtisadi inkişafdakı mühüm rolu nəzərə alınaraq transregional nəqliyyat dəhlizlərinin genişləndirilməsi, səmərəli logistika infrastrukturunun yaradılması kimi məsələlər xüsusi diqqət mərkəzinə çəkildi.

Azərbaycan və Türkiyə hər zaman bölgədə sülhün, sabitliyin və rifahın təminatçısı olub. "Bir millət, iki dövlət" şüarı isə sadəcə söz deyil, gerçək bir siyasi və strateji reallıqdır. Bu qardaşlıq münasibətləri sayəsində hər iki dövlət son illərdə böyük irəliləyişlər əldə edib, əməkdaşlıq bütün sahələrdə böyük inkişaf yolu keçib. Müqəddəs Ramazan ayında - Ankara görüşü çərçivəsində iki dövlət başçısının birlikdə iftar süfrəsində əyləşməsi isə sarsılmaz dostluğun, dərin hörmətin və doğma qardaşlıq hisslərinin ən parlaq ifadəsidir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 12 mart (№ 54).- S.1;9.